# Azərbaycanın tarixi, maddi-mədəniyyət abidələri bütün dünyada tanınır

**İkinci Qarabağ müharibəsi Azərbaycanın qələbəsi ilə bitdi. Xalqımız torpaqlarını erməni işğalından azad etdi. Lakin işğal etdikləri ərazilərimizdə talançılıqla məşğul olaraq daş üstə daş qoymayan mənfur ermənilərin dağıtmadığı, yerlə-yeksan etmədiyi bir tikili qalmayıb. 30 il ərzində xəbis, pis niyyətli yağı düşmən tərəfindən dağıdılıb viran qoyulan yurd yerlərimizə, sözün əsl mənasında, xarabalığa çevrilən ərazilərimizə baxdıqca, bu vəhşiliyi törədənin insan olub-olmadığına şübhə edirsən.**

İfrat millətçilik, türkofobiya, Azərbaycanofobiya, islamofobiya və nifrətin ən ifrat təzahürlərini özündə yaşadan ermənilər sadəcə özlərindən başqa heç bir millətin yaşamadığı Ermənistan yaratmaq üçün dövlət səviyyəsində mütəmadi olaraq etnik təmizləmələr aparmışlar. Ermənilərin Azərbaycana qarşı törətdikləri təcavüzkar əməllərin qurbanları isə təkcə ölkə vətəndaşları deyil, həm də yaşı minillərə söykənən tarixi-mədəni abidələrimiz olmuşdur. Humanizmdən, ədalətdən, beynəlxalq hüquqdan xəbərsiz olan mənfur ermənilər barbar davranışları ilə işğal olunmuş torpaqlarımızda mədəniyyətimizi, dövlətçilik ənənələrimizi yaşadan çoxlu sayda tarixi abidələrimizi məhv etmiş, qədim tarixə malik memarlıq sənəti nümunələrimizi dağıtmışlar. Ermənistanın tarixi torpaqlarımızda törətdiyi vandalizm aktlarının başlıca istiqaməti mədəni irsimizə qarşı yönəlmiş, Azərbaycan xalqının əsrlər boyu yaratdığı tarixi yer üzündən silmək olmuşdur.

30 il ərzində ermənilər bizə məxsus olan tarixi abidələri, ziyarətgah və məscidləri, məzarlıqları dağıtmış, yüzlərlə mədəniyyət abidələrimizi yerlə-yeksan etmiş, Azərbaycan Respublikasına məxsus tarixi abidələrin adlarını dəyişdirib özününküləşdirmiş, tanınmış Azərbaycan ziyalılarının, şair və yazıçıların ev-muzeylərinin yerləşdiyi tarixi binaları, muzeyləri viran qoymuşlar. Mənfur düşmən işğal etdiyi Azərbaycan ərazilərində mədəni irsin məhv edilməsinə və saxtalaşdırılmasına yönələn, beynəlxalq konvensiyalarda bəşəri cinayət hesab edilən əməllər törətmiş, mədəni irsimizi məqsədyönlü şəkildə və xüsusi qəddarlıqla məhv etmişdir.

Siyasi analitik, irlandiyalı tarixçi, Qafqaz və Osmanlı imperiyası tarixi üzrə ekspert Patrik Uolşun ermənilərin Qarabağda tarixi və mədəni irsi necə məhv etməsi ilə bağlı fikirləri mənfur düşmənin iç üzünü açır: "Tam əminəm ki, müsəlmanların məbədlərinin rüsvayçı şəklə salınması İslam dünyasını qəzəbləndirəcək. Mən məscidlərin donuz tövləsinə çevrilməsinə və digər müqəddəs yerlərə qarşı edilən təxribatları nəzərdə tuturam. Həqiqətən də, sahibi olduğu inancdan asılı olmayaraq, şərəfli və mədəni insanlar bu cür barbar və təhqiramiz hadisələri görməlidir. Əminəm ki, ermənilər bu hadisələri qəsdən törədib. Həqiqətən bu cür davranışlar cinayətkarları çox pis bir şəkildə əks etdirir... fərqliliyə hörmət və hər kəsə yer vermək ruhu erməni milliyyətçiliyində çatışmır. Ermənilərin hər şeyə güzəştsiz yanaşmaları var, misal üçün, torpağa, mədəniyyətə, dinə və məskunlaşmaya. Onlar elə hesab edirlər ki, bu ya onlarındır, ya da heç kimin. Dünyanın böyük sivilizasiyalarına və mədəniyyətlərinə hörmət bəsləyən ortaq keçmiş anlayışları yoxdur. Hər şey sanki onlarındır və heç kimi saymırlar".

İşğaldan azad edilmiş ərazilərimizdə məscidlər, türbələr, qəbiristanlıqlar, ümumiyyətlə Azərbaycan xalqına məxsus bütün mədəniyyət abidələri tamamilə dağıdılmış, 67 məsciddən yalnız biri nisbətən salamat vəziyyətdə qalmışdır. Vətən müharibəsindən sonra işğaldan azad edilmiş Ağdam şəhərində olarkən bunu diqqətə çatdıran dövlət başçımız İlham Əliyev demişdir: "Biz UNESCO ilə çox sıx əməkdaşlıq edirik. Amma gəlib xristian məbədlərinə baş çəkmək istəsə, buraya gəlsin. Gəlsin və desin vəhşi erməni neyləyib burada. Bir də ki, bir neçə il bundan əvvəl Minsk qrupunun həmsədr ölkələrinin səfirləri bu məsciddə, burada olublar. Onlar iki dəfə faktaraşdırıcı missiyalar keçiriblər və mənə deyiblər ki, Ağdam məscidində olublar. Niyə məsələ qaldırmayıblar? Niyə bu, bəzi Qərb liderlərində narahatlıq yaratmayıb? Deməli, müsəlman məscidlərini təhqir etmək olar, inək, donuz saxlamaq olar, dağıtmaq olar. Belədirsə, belə də desinlər və getsinlər öz ölkələrində problemlərlə məşğul olsunlar, bizim işimizə burunlarını soxmasınlar. Heç kim bizim işimizə qarışmasın. Biz özümüz gəlmişik buraya. Bütün o ölkələrin səylərinə rəğmən gəlmişik, bütün təxribatlara rəğmən gəlmişik, qan tökə-tökə gəlmişik və durmuşuq bizim torpağımızda. Hərə getsin öz işi ilə məşğul olsun. Bizim işimizə qarışmaq istəyənin cavabını vermişik və verəcəyik".

Düşmən ölkə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağda dünyanın bir çox xarici şirkətlərinin filiallarını yaradaraq müxtəlif sahələr - mədənçilik, tikinti, ağac emalı, telekommunikasiya və digər sahələr üzrə Azərbaycanın icazəsi olmadan qanunsuz fəaliyyət göstərmiş, Azərbaycanın təbii sərvətlərini qəddarlıqla istismar etmiş, qeyri-qanuni yollarla xarici ölkələrdə satmışdır. İşğal olunmuş ərazilərdə həyata keçirilmiş qeyri-qanuni fəaliyyət və təbii ehtiyatların istismarı ölkəmizin iqtisadiyyatı ilə yanaşı, həm də bir sıra ekoloji problemlərə gətirib çıxarmışdır. Belə ki, meşələrin qırılması və yandırılması, su ehtiyatlarının çirklənməsi, flora və faunanın məhv edilməsi, regionda yerin təkinin talan edilməsi nəticəsində ekoloji tarazlıq pozulmuş, torpaq sahələri deqradasiya olunmuşdur. Azərbaycanın əvvəllər işğal olunmuş bütün ərazilərində mövcud olan 260 min hektara yaxın meşə ərazisi son 30 il ərzində sürətlə azalmış, qiymətli ağac növləri - qoz, palıd, Eldar şamı, xurma və xüsusi mühafizə altında olan digər ağaclar, minlərlə hektar ərazini əhatə edən meşələr oduncaq tədarükü üçün qırılmış və qiymətli ağac növlərinin bitdiyi Qarabağın meşə resurslarından mebel, çəllək və tüfəng qundağı istehsalı üçün Ermənistana aparılmışdır. Ermənilər Şuşanın nadir sərvətlərindən biri, qədim tarixə malik, əsl təbiət möcüzəsi olan Topxana meşəsini yandırmış, ölkəmizin ərazi bütövlüyünə, torpaqlarına qəsd edərək Azərbaycan ərazisində ekoloji soyqırımı - ekosid törətmişlər.

Ermənistan işğal etdiyi torpaqlarımızda dünya dövlətlərinin gözü önündə beynəlxalq hüquq prinsiplərinə, BMT və ATƏT-in qərar və qətnamələrinə məhəl qoymayaraq misli görünməmiş vəhşiliklər törətmişdir. İşğalçı dövlətin apardığı qeyri-qanuni iqtisadi fəaliyyət 1949-cu ildə qəbul edilmiş "Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında" Cenevrə Konvensiyasının, "Quru müharibəsinin qanun və adətləri haqqında" IV Haaqa Konvensiyasının, habelə insan hüquqları sahəsində mövcud beynəlxalq konvensiyaların tələblərini kobud şəkildə pozmuşdur. İşğal etdiyi ərazilərdə erməni işğalçılarının canlı təbiətə və bəşəriyyətə qarşı yönəlmiş əməlləri barədə Avropa Vəhşi Təbiətin və Təbii Ətraf Mühitin Mühafizəsi üzrə Bern Konvensiyasının Baş katibinə, Biomüxtəliflik üzrə Konvensiyanın İcraçı katibinə, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının katibliyinə, Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi üzrə Beynəlxalq Birliyin prezidentinə rəsmi müraciətlər edilmiş, beynəlxalq təşkilatların diqqətinə bu istiqamətdə təxirəsalınmaz təd-birlərin görülməsinin zəruriliyi çatdırılsa da, talançı Ermənistan çirkin əməllərindən əl çəkməmişdir...

## Avropa Parlamentinin qətnaməsi qərəzli, ədalətsiz olmaqla, ikili standartlara və yalan faktlara əsaslanır



Bu gün isə Avropa Parlamenti "Dağlıq Qarabağda mədəni irsin məhv edilməsi" ilə bağlı qətnamə qəbul edir və Azərbaycanın "Dağlıq Qarabağda və onun ətrafında erməni mədəni irsini silmək və inkar etmək siyasətini" davam etdirməsini pisləyir. Yüksək səs çoxluğu ilə qəbul edilən qətnamədə Azərbaycanın "tarixi saxtalaşdırması", beynəlxalq hüquq normalarını pozduğu, erməni kilsələri üzərindəki yazıları sildiyi vurğulanır. Qeyd olunur ki, ermənifobiya, ermənilərə qarşı kin, nifrət bəsləyən azərbaycanlılar "erməni mədəni irsinin" silinməsi siyasətini həyata keçiriblər.

Düşmənin Azərbaycan reallığını qəbul edə bilməməsini anlamaq o qədər də çətin deyil. Lakin çətin olan məsələ yer üzündə mövcud olmayan bir irsin silinməsidir...

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**